yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | იენი იოლი საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur









2 PALÇIQ FANTANI, ÜFUNƏT QOXUYAN ŞƏHƏR, QIRMIZI SƏMA

3 İMAN

4 AZƏRBAYCAN-GÜRCÜSTAN İQTİSADİ MÜNASİBƏTLƏRİ

5 2019-CU İLDƏN YAKOB QOQEBAŞVİLİNİN "ANA DİLİ" MƏKTƏBLƏRƏ QAYIDACAQ

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

15 DEKABR
2018-Cİ İL
№020 (79)

## ƏRDOĞAN SALOME ZURABİŞVİLİNİ QƏLƏBƏ MÜNASİBƏTİ İLƏ TƏBRİK EDİB



Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Salome Zurabişvilini prezident seçkilərinin ikinci turundakı qələbəsi münasibəti ilə təbrik edib. Təbrik məktubunu S.Zurabişvilinin mətbuat xidməti yayımlayıb.

R.T.Ərdoğan məktubda gələcək əməkdaşlıq perspektivlərindən də söz açıb.

"Məlumat aldım ki, 2018-ci ilin 28 noyabr tarixində keçirilən prezident seçkilərinin 2-ci turunda Gürcüstan prezidenti olmaq üçün səslərin yetərli sayını toplamısınız. Xalqın səsi ilə bu ləyaqətli vəzifəyə seçilməniz münasibəti ilə sizi təbrik edirəm.

Türkiyə və Gürcüstan arasında olan strateji əməkdaşlıq, ikitərəfli və çoxtərəfli əlaqələrin bütün sahələrdə daha da inkişaf etdirilməsi üçün sizinlə birgə çalışmağa sevinərəm.

Fürsətdən istifadə edərək sizə sağlamlıq və xoşbəxtlik, gürcü xalqına isə firavanlıq və inkişaf arzu edirəm", - təbrik məktubunda yazılıb.

Xatırladaq ki, 2018-ci ilin prezident seçkilərinin ikinci turunda "Gürcü arzusu" Partiyası tərəfindən dəstəklənən müstəqil namizəd Salome Zurabişvili 59,52% səs toplayaraq Gürcüstan prezidenti seçilib.

## 2019-CU İLİN DÖVLƏT BÜDCƏSİ TƏSDİQ EDİLİB

Dekabrın 13-ü Gürcüstan parlamenti 2019-cu ilin dövlət büdcəsini 91 səs lehinə, 9 səs əleyhinə olmaqla təsdiq edib.

Gürcüstanın gələn ilki büdcəsinin həcmi 13 milyard 90 milyon lari təşkil edir ki, bu da ötən illə müqayisədə 600 milyon lari çoxdur. Büdcə layihəsinə əsasən, sosial, təhsil və səhiyyə sahələrinə daha çox vəsait xərclənəcək.



Qeyd edək ki, dekabrın 12-si qanunverici orqanda büdcə layihəsinin son variantı nəzərdən keçirilsə də, yetərli say olmaması səbəbindən sənəd üzrə səsvermə baş tutmayıb.

## GÜRCÜSTAN PARLAMENTİ QANUNVERİCİ ORQANIN KUTAİSİDƏN TBİLİSİYƏ KÖÇÜRÜLMƏSİ İLƏ BAĞLI REQLAMENTİ QƏBUL EDİB



Gürcüstan parlamenti qanunverici orqanın Kutaisidən Tbilisiyə köçürülməsi ilə bağlı reqlamenti üçüncü oxunuşda qəbul edib.

Parlamentin dekabrın 6-sı keçirilən iclasında yeni reqlamentin lehinə 77, əleyhinə 2 deputat səs verib.

Yeni reqlamentə əsasən, Gürcüstan parlamentinin yerləşdiyi yer paytaxt Tbilisi müəyyən olunub. Parlamentin sessiyası digər yerdə yalnız Tbilisidəki qanunverici orqan binasının hansısa səbəbdən fəaliyyət göstərməməsi halında mümkün ola biləcək.

Parlamentin Kutaisi şəhərindəki binasında isə regional polis habının yaradılması planlaşdırılır.

Qeyd edək ki, Gürcüstan parlamenti 2012-ci ilin oktyabrından Kutaisidə fəaliyyət göstərirdi. 2014-cü ildən parlamentin yalnız komitə iclasları Tbilisidəki binada keçirilib.

## TÜRKİYƏNİN SAHİL MÜHAFİZƏ KOMANDANI GÜRCÜSTANIN DAXİLİ İŞLƏR NAZİRİ İLƏ GÖRÜŞÜB



Tbilisidə səfərdə olan Türkiyənin sahil mühafizə komandanı Əhməd Kendir Gürcüstanın daxili işlər naziri Giorgi Qaxariya ilə görüşüb.

Gürcüstan Daxili işlər Nazirliyinin yaydığı məlumata əsasən, görüşdə hər iki ölkənin sahil mühafizə xidmətləri arasında uğurlu əməkdaşlığın perspektivləri əsas müzakirə mövzusu olub.

Giorgi Qaxariya qonağı nazirliyin strukturlarında aparılan islahatlar, regional əməkdaşlıq və prioritetlərlə tanış edib. Gürcüstanın sahil mühafizə sisteminin möhkəmləndirilməsi və Qara dəniz hövzəsində təhlükəsizlik məsələləri barədə məlumat verib.

Görüşdə gələcək əməkdaşlığın daha da dərinləşməsi, regional təhlükəsizliyin, sabitliyin təmin olunmasında region dövlətləri ilə münasibətlər və digər məsələlər diqqət mərkəzində olub.



# PALÇIQ FANTANI, ÜFUNƏT QOXUYAN ŞƏHƏR, QIRMIZI SƏMA

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

*Qış yenə "su və ləkələr şəklində gəldi" (ifadə Aqşin Yeniseyindir). Yenə palçıqlı, keçilməsi üçün bəzən qayıq lazım olan su gölməçələri ilə dolmuş yollar – yazı yayından, payızı qışından fərqlənməyən vətənimizin hər il çəkib yaddaşımızın divarından asdığı eyni peyzajı budur.*

Seçkilərdən qabaq yolları asfaltlanan yolçuların ayaqları dincəldi, asfaltlanmayanlarınkı (sözü heca ilə oxuyun) isə qaldı gələn seçkiqabağına (kaş seçkilər tez-tez ola). Yollara asfalt örtüyünün çəkilməsi ən çox da müəllimlər və şagirdlərin ayaqlarını sevindirdi. Çünki "bir yol var ki, dünyada" (ifadə Xanımana Əlibəylinindir) şagirdlər 12 il, müəllimlər "qoca olana qədər" (X.Əlibəyli) o yolun yolçusu olurlar. Yağışda, palçıqda, qarda, şaxtada bəzən ayaqqabılarının üstündən sellofan paket keçirərək, bəzən də palçıqlı yolda ayaqqabılarını dəyişib məktəbə və evə çatana kimi başqa ayaqqabı ilə yola çıxan müəllimlər də var. Demək istədiyim odur ki, birinci növbədə məktəblərə aparan yolların hamısı asfaltlanmalıdır. Avropa istəyiriksə Avropaya gedən yollarımızın asfaltlı olması lazımdır, yoxsa kimdir ayaqqabısı palçıqlı bizi Avropa Sarayının qapısından içəri buraxan.

Bütün yollar Romaya aparır deyirlər, amma Qardabanidəki tar və çonqur abidəsi olan fəaliyyətsiz fantanın ətrafındakı yolla nəinki Romaya, heç yolun o biri üzündəki aptekə getmək olmur. Elə bil fantan ətrafa palçıq fışqırır. Bu haqda dəfələrlə yazsaq da heç bir dəyişiklik yoxdur. Elə ki yağışlar yağmağa başladı fantanın ətrafı gölməçələrlə dolur. Günlərlə, hətta aylarla Ayın səthini xatırladan palçıqlı asfaltın oyuqlarında qrunt suları iylənir. Bir yandan küçə ticarəti, bir yandan da taksilərin Rustavi maşın bazarını xatırladan düzülüşü nəinki sakinlərə, təcili yardım maşınının hərəkətinə də əngəl olur. Bayram günləri fantanın ətrafı ilə hərəkət etmək lap müşkül məsələyə çevrilir. Fantanın yanı olur bazar. Təcili yardım maşını o izdihamı bir təhər yarıb çıxana kimi xəstə artıq dünyasını dəyişir. Ətrafda iki zibil qabı var ki, üfunətindən oradan keçmək olmur. Digər tərəfdən də zibil yeşiklərinə yiyələnmiş küçə itlərinin hücumu oranı lap keçilməz qalaya çevirib. Yayda toyuğun iyi, qışda balığın iyi sakinləri narahat edir. Ümumiyyətlə, bu cür antisanitariya şəraitində ət məhsullarının satışına necə icazə verilir. Məsələn, dəfələrlə şahidi olmuşuq, balığı üfunətli zibil yeşiklərinin yanında satırlar, zibil yeşiklərinin daimi sakinləri olan pişiklər satıcının gözündən yayınaraq balığın təmizləndiyi stolun üzərində istədiyi kimi gəzir, yalayır, kef edirlər. Sakinlər bu problemlərin qəzetimizdə işıqlandırılmasını dəfələrlə istəyiblər. Təəssüf ki, bizim əlimizdən problemi yalnız göstərmək gəlir, onu həll etmək isə yerli hakimiyyətin işidir.

Üfunət demişkən, son zamanlar Qardabanidə günün səhər və axşam vaxtları ətrafa pis qoxu yayılır. Bu müəmmalı üfunət qoxusunun mənbəyi ilə bağlı hərə bir şey deyir. Kimi deyir yağış yağanda şəhərin kanalizasiyaları dolur, kimi deyir parniklərə verilən kübrənin qoxusudur, kimi də deyir Rustavinin kanalizasiyasıdır, Qardabanidə yığılıb təmizlənir, suyu Kürə axıdılır, qalığı isə torpağa basdırılır.

*Qardabani HES-nin yanında yerləşən parnikin Qardabani səmasını hər axşam qırmızı işığa boyaması isə Karl Brüllovun "Pompeyin son günü" tablosunu xatırladır. Qırmızı səma və üfunətli qoxu artıq sakinləri ciddi narahat etməyə başlayıb. Bütün bu mənzərə Qardabani sakinlərinin ovqatına ciddi təsir edir. "Bilirsiniz, niyə pis iy gəlir şəhərimizdən?" (Xaqani Hass) sualına isə şairin cavabı başqadır.*

# KREDİTLƏRİN SİLİNMƏSİ İLƏ BAĞLI BORCLULARIN SİYAHIDA OLUB-OLMADIĞINI YOXLAMASI ÜÇÜN VALİ.GE VEB SƏHİFƏSİ FƏALİYYƏTƏ BAŞLAYIB




www.vali.ge – bu, vətəndaşların adlarının borclarının sıfırlanması üçün siyahıda olub-olmadığını yoxlaya biləcəyi veb səhifədir.

Veb səhifə dekabrın 10-u, saat 18:00-da fəaliyyətə başlayıb və səhifədə "Gürcüstan Bankı" (Bank of Georgia), "TBC Bank", "Liberty Bank", "Silk Road Bank", "Halyk Bank", "İŞBANK", "VTB Bank", Basis-Bank", "Terabank" və "Credo Bank" kimi maliyyə təşkilatlarının borcları yerləşdirilib.

Veb sahifədə göstəricilərin yoxlanılması üçün istifadəçi üç mərhələdən keçməlidir:

1. Krediti olanın şəxsi nömrəsi qeyd edilməli;
2. Doğum günü, ayı, ili qeyd edilməli;
3. Təhlükəsizlik məqsədi ilə "Mən robot deyiləm" xanası doldurulmalıdır.

"Maliyyə institutları ilə müqavilənin bağlanması prosesi davam edir. 15 dekabrdan cari ilin sonuna qədər müxtəlif mərhələ ilə vətəndaşlarımızın "qara siyahı"dan çıxarılması olacaq və vətəndaşların böyük hissəsi Yeni ili bu ağrılı problemdən kənar qarşılayacaqlar", - baş nazir Mamuka Baxtadze deyib.

Qeyd edək ki, noyabrın 19-u baş tutan brifinqdə Mamuka Baxtadze "qara siyahı"da olan 600 min nəfərin ümumilikdə 1,5 milyard larilik borcunun silinməsi təşəbbüsü ilə çıxış edib.

Borcların silinməsi üçün maliyyə şirkətində borcun həcmi 2000 laridən çox olmamalıdır. "Vivus" müştərilərinin borcları isə silinməyəcək. Maliyyə nazirinin sözlərinə

# GÜRCÜSTANDA KƏND TƏSƏRRÜFATI TORPAQLARININ ƏCNƏBİLƏRƏ SATILMASI İLƏ BAĞLI QADAĞA MÜVƏQQƏTİ LƏĞV OLUNUB




Gürcüstanda xarici vətəndaşlara kənd təsərrüfatı torpaqlarının satışına qoyulmuş moratorium müvəqqəti ləğv olunub. Bu barədə Konstitusiya Məhkəməsi qərar qəbul edib. Qərara əsasən, qadağa Gürcüstan Konstitusiyasına zidd elan olunub.

Konstitusiya Məhkəməsinə Yunanıstan vətəndaşları iddia ilə müraciət ediblər. Onlar qüvvədə olan qadağanın Gürcüstanın hazırkı əsas qanununun mülk və mirasın toxunulmazlığı və tanınması maddələrinə uyğun gəlmədiyini bildiriblər.

Qeyd edək ki, bu ilin iyun ayında Gürcüstan parlamenti əcnəbilərə kənd təsərrüfatına yararlı torpaqların satılmasına moratorium qoyub. Moratorium Gürcüstan Konstitusiyasının yeni redaksiyasının qüvvəyə minməsinə qədər qüvvədə olmalı idi. Ölkənin əsas qanunu ilə kənd təsərrüfatı torpaqlarının xarici vətəndaşlara satılması tam qadağan olunacaq.

Gürcüstan Konstitusiyasının yeni redaksiyasının dekabrın 16-da – yeni prezidentin andiçmə mərasimindən sonra qüvvəyə minməsi ilə əlaqədar Konstitusiya Məhkəməsinin qərarı doqquz gün etibarlı olacaq.

# FÖVQƏLADƏ HALLARIN İDARƏSİ XİDMƏTİNƏ YENİ RƏHBƏR TƏYİN EDİLİB



Fövqəladə Halların İdarəsi Xidmətinin yeni rəhbəri Teymuraz Mğebrişvili təyin edilib. İdarədən verilən məlumata görə, sərəncamı baş nazir Mamuka Baxtadze imzalayıb.

"Gürcüstanın "Mülki təhlükəsizlik haqqında" qanununun 42-ci maddəsinin 1-ci bəndinə əsasən, Teymuraz Mğebrişvili Fövqəladə Halların İdarəsi Xidmətinin rəhbəri təyin olunsun", - sərəncamda yazılır.

Teymuraz Mğebrişvili 1971-ci ilin 14 iyulunda Tbilisidə anadan olub. 2004-cü ildə Gürcüstan Dövlət Aqrar Universitetinin hüquqşünaslıq fakültəsini bitirib.

# PREZİDENTİN EHTİYAT FONDU LƏĞV OLUNUB

Gürcüstan prezidentinin ehtiyat fondu ləğv edilir, həmçinin administrasiya işçilərinin sayı azaldılır.

Qeyd edək ki, hər il dövlət büdcəsindən prezidentin ehtiyat fonduna 5 milyon lari maliyyə vəsaiti ayrılırdı.

2019-cu ilin dövlət büdcəsində Prezident Administrasiyasının maliyyələşdirilməsi 3,8 milyon lariyə qədər azaldılıb. Büdcə layihəsində əvvəl bu rəqəm 9,8 milyon lari nəzərdə tutulmuşdu.

Prezident Administrasiyasında çalışan işçilərin sayı da 140 nəfərdən 60 nəfərədək azaldılır.

## TÜRKİYƏ SURİYANIN ŞİMALINDA YENİ HƏRBİ ƏMƏLİYYAT KEÇİRMƏYƏ HAZIRLAŞIR



Türkiyə ordusu yaxın günlərdə Fərat çayının şərq sahilində terror qruplaşmalarına qarşı hərbi əməliyyata başlamaq niyyətindədir. Bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

"Biz Fərat çayından şərqdə yaşayan əhaliyə qətiyyətlə sülh və əmin-amanlıq gətirmək istəyirik. Biz heç vaxt nə ABŞ hakimiyyətinə, nə də Suriyadakı amerikalı hərbçilərə qarşı çıxmamışıq. Amerikanı gələcəkdə də birgə yol gedəcəyimiz strateji tərəfdaş olaraq görürük. Suriya böhranına dair aramızdakı fikir ayrılıqlarının gələcəkdəki böyük iş birliyimizin önündə əngəl olmasına yol verməməliyik", - deyə Türkiyə lideri Ankarada çıxışı zamanı bildirib.

Prezidentin sözlərinə görə, Türkiyə hazırlanan əməliyyat barədə ABŞ-ı məlumatlandırıb.

Xatırladaq ki, Türkiyə ordusu Suriya ərazisində fəaliyyət göstərən terrorçulara qarşı dəfələrlə hərbi əməliyyatlar keçirib. Onlardan sonuncusu ötən qışda Afrin rayonunun azad edilməsi ilə nəticələnən "Zeytun budağı" əməliyyatı olub.

## TÜRKİYƏ QARA DƏNİZDƏ HƏRBİ-DƏNİZ BAZASI YARADACAQ



Türkiyə Qara dənizin şərq sahillərində yeni hərbi-dəniz bazası yaradılması üzrə işlərə başlayıb. Bu barədə "Milliyet" qəzeti xəbər yazıb.

Yeni hərbi obyekt Trabzon şəhərindən 40 km məsafədə olan Sürmene yaşayış məntəqəsi ərazisində yerləşəcək. Hərbi bazada 400 hərbi qulluqçunun xidmət çəkəcəyi, eləcə də 200 mülki işçinin çalışacağı gözlənilir.

Qəzetdə bildirilir ki, rəsmi Ankara bu addımı Kerç boğazındakı hadisədən sonra ABŞ-ın hərbi gəmilərini Qara dənizə göndərmək niyyətində olması ilə bağlı xəbərlər fonunda atıb.

Hazırda Türkiyənin dörd dənizdə 8 hərbi-dəniz bazası var.

## FRANSADA FÖVQƏLADƏ VƏZİYYƏT ELAN EDİLİB



Fransa prezidenti Emmanuel Makron kütləvi etiraz aksiyaları ilə əlaqədar ölkədə fövqəladə vəziyyət elan edib. Bu barədə o, xalqa müraciətində bildirib.

"Birincisi, bu gün fövqəladə iqtisadi və sosial vəziyyət elan etmək istəyirəm. Biz hörmət ediləcək, uşaqlarımızın bizdən də yaxşı yaşayacağı Fransanı qurmaq istəyirik", - deyə o bildirib.

E.Makron qeyd edib ki, ölkənin problemləri çoxdan mövcuddur. Problemlərin kökləri 40 il əvvələ gedib çıxır və indi onlar "küçələrə çıxır".

"Mən bizim ölkənin siyasi sistemi ilə mübarizə apararaq, onu sizin üçün yaxşılaşdırmaq istəyirdim. Bir çox ölkələr belə vəziyyətlərdən çox ağır keçir, lakin mən ümid edirəm ki, Fransa xalqı vahid qalmaq üçün kifayət qədər güclü olacaq", - prezident qeyd edib.

O, hökumətdən və parlamentdən öz işini yenidən qurmağı tələb edib. Prezidentin sözlərinə görə, 2019-ci ildən Fransada əmək haqqının minimum məbləği 100 avroya qədər artacaq.

Qeyd edək ki, Fransada noyabrın 17-dən avtomobil yanacağının qiymətinin bahalaşacağına qarşı etiraz aksiyaları keçirilir.

## TÜRKİYƏDƏ KOSMİK AGENTLİK YARADILIB



Türkiyədə Kosmik Agentlik yaradılıb. Bu barədə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan sərəncam imzalayıb.

Sərəncama əsasən, yeni agentliyin nizamnaməsi təsdiqlənib və səlahiyyətləri müəyyənləşdirilib. Qurum müstəqil fəaliyyət göstərəcək və ayrıca büdcəsi olacaq.

Yeni yaradılan agentlik Türkiyənin Sənaye və Texnologiya Nazirliyi ilə əlaqəli şəkildə işləyəcək. Agentlik ölkənin aerokosmik sənayesinin inkişafına məsuliyyət daşıyacaq.

Kosmik Agentliyin danışıqlar aparmaq, dövlət adından kosmik aparatların istifadəsi məsələləri üzrə sənədlər də daxil olmaqla müqavilələr imzalamaq səlahiyyəti var.

## İMAN



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

*Bu yaxınlarda oxucularımız arasında qəzetimizlə bağlı kiçik ölçüdə bir sorğu keçirdik. Sorğudakı suallardan biri də qəzetimizdə oxumaq istədikləri mövzular soruşulmuşdu. Bu suala müxtəlif cavablar yazılmışdı. Bu cavablar arasında dini mövzulara da yer ayırmağımızı istəyənlər də olmuşdur. İlk öncə onu vurğulamaq istəyirəm ki, qəzetimizdə bu mövzuda ictimaiyyəti maraqlandıran nöqtələrə toxunmağa çalışırıq. Həmçinin mənəvi dəyərlərimizlə birlikdə milli və mədəni dəyərlərimizə də yer ayırmağa çalışırıq.*

Siz dəyərli oxucularımızın istəyini nəzərə alaraq bu sayımızda imanın şərtləri haqqında yazmağı düşündük. İman – bizlərə bildirilmiş olan 6 əsasa qəlb ilə inanmaq və onu dil ilə də təsdiq etməkdir. Dediyimiz altı şərt isə bunlardır: Allahın varlığına və birliyinə, kitablarına, peyğəmbərlərə, mələklərinə, qədər və qəzaya, yəni xeyrin və şərin Allah tərəfindən olduğuna və qiyamət gününə, yəni öldükdən sonra diriləcəyinə inanmaq.

İman – Həzrət Məhəmmədin (s.ə.s.) peyğəmbər olaraq bildirdiyi dini ağla, təcrübəyə və fəlsəfəyə uyğun olub olmadığına baxmadan təsdiq etmək, yəni qəbul edib, bəyənib, inanmaqdır. Ağla uyğun olduğu üçün təsdiq etmək, Rəsulunu deyil, ağlı təsdiq etmək deməkdir. Yaxud da Peyğəmbəri və ağlı birlikdə təsdiq etmək olar, o zaman isə Peyğəmbərə etimad tam olmaz. Tam olmayınca da iman olmaz. Allah-Təala Bəqərə surəsinin 3-cü ayəsində: "Onlar qeybə (görmədikləri halda Rəsulumun bildirdiyi hər şeyə) iman edərlər" buyurur, Rəsulullah isə hədisi şərifində "Dini (hökmləri, dində bildirilənləri) ağlı ilə ölçəndən daha zərərlisi yoxdur" buyurmaqdadır (Təbərani).

Eyni zamanda Peyğəmbər əfəndimiz iman ilə əlaqədar ayələri aşağıda bildirilən formada açıqlayaraq imanı belə təsvir etmişdir:

"İman – Allaha, mələklərə, kitablara, peyğəmbərlərə, axirət gününə (yəni Qiyamətə, Cənnətə, Cəhənnəmə, hesaba, mizana), qədərə, xeyirin və şərin Allahdan olduğuna, ölümə, öldükdən sonra dirilməyə inanmaqdır. Allahdan başqa ilah olmadığına və mənim Onun qulu və elçisi olduğuma şahidlik etməkdir" (Buxari, Müslim, Nəsai).

İman – Allah Rəsulunu, Allahın qatından gətirmiş olduğu Quran və hökmlərinin hamısını qəti olaraq təsdiq etmək, bunu diliylə təsdiq edib, Quranı və hökmlərini din və nizam olaraq yaşamağa və yaşatmağa çalışmaqdır.

İmanı qorumaq isə Allahın əmr etdiyi və Rəsulunun buna əlavə olaraq sevərək yerinə gətirdiyi ibadətlərə davam etməklə mümkündür. Buna aid məşhur bir misal vardır. Bu misalda imanı bir lampaya, ibadəti isə lampanın şüşəsinə bənzədirlər. Əgər şüşə olmazsa yüngül bir sazaq belə lampanı söndürər. Ancaq şüşəni keçirdikdə isə, o şüşə alovu qoruyar və küləyin onu keçirməsinə mane olar. İbadət də imanı qoruyar və onu kənardan olan güclərdən qoruyar və güclü tutar.

*Əziz oxucular sonda onu da qeyd etmək istəyirəm ki, qəzetimizi yerə və natəmiz yerə atmamağınızı xahiş edirik. Çünki qəzetdə dini yazılarda Allahın və Peyğəmbərin adları, həmçinin Qurani-Kərimin ayələri yazılmaqdadır.*

# AZƏRBAYCAN-GÜRCÜSTAN İQTİSADİ MÜNASİBƏTLƏRİ

Azərbaycan-Gürcüstan münasibətləri sadəcə coğrafi yaxınlıqdan qaynaqlanan münasibətlər deyil, belə qeyd etmək mümkündürsə "tale ortaqlığı"dır. Hər iki dövlət uzun illər boyunca eyni istiqamətlərdən hədələrə və işğala məruz qalıb, eyni imperiyaların tərkibində olub. Yaxın tarixdə eyni siyasi-ideoloji sistemin bir parçası olublar. Oxşar proseslərlə müstəqilliklərinə qovuşublar. Həm Gürcüstan, həm də Azərbaycan müstəqillik mübarizəsi apararkən həm də ərazi bütövlüyü problemi yaşayıblar. Hər iki ölkənin ərazilərinin bir hissəsi qonşu dövlətin işğalı altındadır. Amma həm Gürcüstan, həm də Azərbaycan qarşılaşdığı problemlərə baxmayaraq daha çox gərginliyə meyilli dövlət kimi deyil, əməkdaşlığa can atan, regional və beynəlxalq sülhə töhfə vermək istəyən dövlətlər kimi tanınmışdır.

Yaxın tarixdəki Azərbaycan-Gürcüstan münasibətləri sadəcə bu iki ölkə üçün deyil, ümumilikdə region üçün əhəmiyyət daşıyır. Azərbaycan və Gürcüstanın iştirakı ilə reallaşdırılan layihələr sadəcə bu iki ölkənin maraqlarına deyil, qlobal enerji təhlükəsizliyinə də töhfələr verir. Gürcüstan və Azərbaycanın reallaşdırdığı nəqliyyat layihələri uzaq Asiya ilə Avropanın ən qərbini birləşdirən transmilli layihələr kimi qlobal əhəmiyyət daşıyır.

Bu günə qədər iki ölkə arasında 100-dən çox sənəd imzalanıb. Azərbaycan Respublikası ilə Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiya formalaşdırılıb. Komissiyanın iclasları 11 iyun 2004-cü il tarixdə Tbilisidə, 18 iyul 2005-ci il tarixdə Gəncədə, 16 avqust 2006-cı il tarixdə Batumidə, 27 sentyabr 2007-ci il tarixdə Bakıda, 4 dekabr 2008-ci il tarixdə Tbilisidə, 23 iyul 2010-cu il tarixdə Bakıda, 20 dekabr 2011-ci il tarixdə Tbilisidə keçirilib.

İki ölkə üçtərəfli formatda (Azərbaycan-Gürcüstan-Türkiyə) da əməkdaşlıq edir. Xarici işlər nazirləri və dövlət başçılarının görüşləri ilə yanaşı mütəmadi olaraq Azərbaycan-Gürcüstan-Türkiyə Biznes Forumları keçirilir. Belə forumlardan dördüncüsü 2015-ci il martın 6-da Gürcüstanın Batumi şəhərində, hələlik sonuncu olan beşincisi isə 2017-ci il fevralın 17-də İstanbulda keçirilib. Forumlarda iqtisadi əməkdaşlıq və əlaqələrin genişləndirilməsi perspektivləri müzakirə edilir, Gürcüstan, Azərbaycan və Türkiyə iqtisadiyyatına, bu ölkələrin biznes və investisiya imkanlarına dair təqdimatlar keçirilir, iş adamları arasında ikitərəfli görüşlər təşkil olunur.

Gürcüstan və Azərbaycanın iştirakı ilə regional və beynəlxalq əhəmiyyətli enerji və transport layihələri həyata keçirilir. Bunlar Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmiryol xətti, TAP, TANAP layihələridir.



**Azərbaycan-Gürcüstan xarici ticarət dövriyyəsi, min ABŞ dolları ilə**

| İllər | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|
| Gürcüstan | 406 750,5 | 542 202,8 | 454 891,4 | 461 382,1 | 624 810,2 | 700 660,2 |
| **İllər** | **2013** | **2014** | **2015** | **2016** | **2017** | **2018*** |
| Gürcüstan | 650 466,3 | 623 437,9 | 433 947,2 | 394 888,6 | 545 497,5 | 313 072,7 |

Bu tabloda 2012-ci ilə qədər yüksəliş, 2013-cü ildən etibarən isə müəyyən düşmə müşahidə edilir. Bunun əsas səbəblərindən biri qlobal iqtisadiyyatda yaşanan böhranlar və onun regional təsirləri, eləcə də neft qiymətlərindəki azalmanın Azərbaycan iqtisadiyyatına təsiridir. *2018-ci ilin ticarət dövriyyəsi isə cari ilin yanvar-iyun aylarını əhatə edir.

Azərbaycanda 150-dən artıq Gürcüstan şirkəti, Gürcüstanda isə 300-ə yaxın Azərbaycan şirkəti fəaliyyət göstərir. Son illərdə Azərbaycan Gürcüstana böyük miqdarda sərmayə yatırır və hazırda Azərbaycan Gürcüstanda ən böyük kapital qoyuluşunu həyata keçirən ölkədir. Azərbaycan şirkətləri tərəfindən indiyədək Gürcüstanda 7700-dən artıq iş yeri yaradılmışdır. Bu tendensiyanın qarşılıqlı şəkildə artdığı müşahidə edilir. Gürcüstanın ən aktiv ticarət əlaqəsi olan ölkələr sırasında Azərbaycan öncül yerlərdən birini tutur. Eyni zamanda Azərbaycan Gürcüstanda sosial layihələrə də dəstək verir. Etnik separatizmin həssas olduğu bir regionda yaşamağımıza baxmayaraq Gürcüstanda yaşayan azərbaycanlılar və Azərbaycanda yaşayan gürcülər iki ölkə arasında sağlam körpü rolunu oynayırlar.

Göründüyü kimi Gürcüstan-Azərbaycan münasibətləri olduqca çoxşaxəli, strateji xarakterə və müsbət dinamikaya malikdir. Bu dinamikada iki dövlət arasındakı iqtisadi münasibətlər xüsusi rol oynayır. Ölkələr bir-biri üçün həyati əhəmiyyət daşıyan mövzularda (xüsusilə ərazi bütövlüyü məsələsində) bir-birini tam dəstəkləyirlər. Gürcüstan ilə Azərbaycan arasındakı əməkdaşlıqdan sadəcə bu iki ölkə deyil, uzaq şərqdən qərbə qədər (şərti olaraq "Pekindən Londona qədər") çox sayda ölkə faydalanır. Azərbaycan və Gürcüstan münasibətlərdəki hazırkı dinamikanı qoruyaraq həm regional sülhə və əməkdaşlığa töhfə verəcək, həm də yeni strateji əhəmiyyətli iqtisadi layihələr reallaşdıracaqdır.

*Araz Aslanlı, Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi*
*Əbilxan İsayev, Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi*

## MİKROMALİYYƏ TƏŞKİLATLARININ BİR HİSSƏSİ SOSİAL MÜDAFİƏSİZ ŞƏXSLƏRİN BORCUNU KOMPENSASİYADAN KƏNAR SİLƏCƏK



Mikromaliyyə təşkilatlarının bir hissəsi "qara siyahı"da olan sosial müdafiəsiz şəxslərin borcunu "Cartu Bank"dan kompensasiya almadan siləcək. Bu haqda "BiznessPressNews"a mikromaliyyə assosiasiyasının sədri Beso Şenqeliya bildirib.

Onun sözlərinə görə, indiki mərhələdə təşəbbüsə 12 mikromaliyyə təşkilatı qoşulub, ancaq onların sayı arta bilər.

"12 mikromaliyyə təşkilatı qərar verib ki, "qara siyahı"da olan sosial müdafiəsiz şəxslərin borcunu "Cartu Bank"ın kompensasiyasından kənar sıfırlayacaq. Ancaq indiki mərhələdə vətəndaşların sayı məlum deyil. Qeyd edək ki, bu təşəbbüsə qoşulan təşkilatların sayı artır. Bunun səbəbi isə hakimiyyətin təklif etdiyi güzəştli şərtdir. Maliyyə Nazirliyi tərəfindən artıq şifahi vəd alınıb ki, müəyyən qanunverici təşəbbüslər hazırlanacaq və ona əsasən "qara siyahı"da olan sosial müdafiəsiz vətəndaşlar üçün borcların silinməsi halında təşkilatlar vergi ödəməyəcəklər", - deyə B.Şenqeliya bildirib.

Borcların silinməsi təqribən 600 min nəfərə aid olacaq. Bunun 150 minə qədəri isə sosial müdafiəsizlərdir. Borcların silinməsinə 15 dekabrdan başlanılacaq və 31 dekabra qədər başa çatacaq.

## ŞƏXSİYYƏT VƏSİQƏSİNİN PULSUZ VERİLMƏSİ YANVARIN 1-NƏ QƏDƏR DAVAM EDƏCƏK

Müəyyən kateqoriyaya aid şəxslərə pulsuz şəxsiyyət vəsiqəsinin verilməsi 2019-cu ilin 1 yanvarına qədər davam edəcək. Şəxsiyyət vəsiqəsini pulsuz ala bilərlər:

- Yanvarın 1-nə qədər 18 yaşı tamam olanlar, 2018-ci ilin 1 martına qədər Gürcüstan vətəndaşlığını təsdiq edən heç bir sənəd almayanlar;
- Şəxsiyyət vəsiqəsində fotoşəkli keyfiyyətsiz olanlar və ya agentliyin elektron məlumat bazasında olmayanlar;
- Qeydiyyatdan çıxarılmış, şəxsiyyəti təsdiq edən sənədi ləğv edilmiş vətəndaşlar (əgər həqiqi ünvanda qeydiyyatdan keçərlərsə);
- Ünvansız qeydiyyatdan keçmiş, şəxsiyyət vəsiqələri ləğv edilmiş vətəndaşlar (əgər həqiqi ünvanda qediyyatdan keçərlərsə);
- Heç bir hüquqi sənədi olmayanlar;
- Gürcüstanın işğal olunmuş ərazilərində qeydiyyatda olan, məcburi köçkün statusu olmayanlar, həmçinin onlar Gürcüstanın işğal olunmamış ərazilərində konkret ünvanda qeydiyyatdan keçərlərsə şəxsiyyəti təsdiq edən sənədi pulsuz ala bilərlər.

Cari ilin mart ayının 1-i seçicilərin siyahısının düzəlişi məqsədi ilə başlanılan kampaniya çərçivəsində 98246 nəfər şəxsiyyəti təsdiq edən sənədi pulsuz alıb.

## 2019-CU İLDƏN YAKOB QOQEBAŞVİLİNİN "ANA DİLİ" MƏKTƏBLƏRƏ QAYIDACAQ

*Gələn tədris ilindən Yakob Qoqebaşvilinin "Ana dili" dərsliyi məktəblərə qayıdacaq. Qeyd olunan təşəbbüslə bağlı Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyində komissiya yaradılacaq. Komissiya Y.Qoqebaşvilinin "Ana dili"nin məzmun hissəsinin təkmilləşdirilməsi və təsdiqlənməsi üzərində çalışacaq.*

*Gürcüstan parlamentinin Təhsil, Elm və Mədəniyyət Komitəsinin sədri Mariam Caşi məsələ ilə bağlı fikir bildirib:*



**- Yakob Qoqebaşvilinin "Ana dili"nin tədris dərslikləri arasından çıxarılması yetərincə mənfi qarşılandı. Əldə olunan nəticəni necə qiymətləndirirsiz?**

- Əldə olunan nəticəni qiymətləndirmək olduqca çətindir. Ən əsası odur ki, cəmiyyət və pedaqoji korpus tərəfindən Qoqebaşvilinin "Ana dili"nin əhatə etdiyi bu unikal metodun qaytarılması üçün tələb və tövsiyyə var idi. Baxmayaraq ki, müxtəlif məktəblərdə Yakob Qoqebaşvili metodu ilə tədris aparılır, məktəblərdə olan dərsliklər olduqca rəngarəngdir. Ana dilinin pedaqoji metodunun mədəni miras statusu daşıyan əsas prinsipləri müəyyən dərəcədə dağıldı. Məhz buna görə də, keçən yaydan bu mövzuda danışmağa başladıq. O zaman dərsliklərin qriflənməsi prosesi getdiyinə görə, proseslərə müdaxilə etməkdən çəkindik.

**- Məsələ təşəbbüs səviyyəsindədir, yoxsa konkret planlar mövcuddur?**

- Təhsil Nazirliyində milli komissiya yaradılır. Komissiya Qoqebaşvilinin "Ana dili"nin məzmun hissəsinin təkmilləşdirilməsi üzərində çalışacaq, sonra onun təsdiqlənməsi baş verəcək. Bu, məktəblərdə əsası qoyulacaq vahid əlifba dərsliyi olacaq. Qeyd olunandan əlavə, Təhsil Nazirliyində istifadə olunacaq mədəni miras abidələrinin qanunvericiliklə qorunması üçün hazırlıq gedir. Milli və ya beynəlxalq kateqoriyaya aid qeyri-maddi mədəni miras abidəsi statusu olan metod əsasında yaradılmış hər hansı dərsliyin hazırlanması və qriflənməsinin xüsusi qaydada olması üçün artıq təşəbbüsü qeydiyyatdan keçirmişik.

**- "Ana dili"də dəfələrlə dəyişikliklər edilib. Bu dəfə "Ana dili"nin hansı variantının məktəblərə qaytarılmasını müzakirə edirsiz?**

- Sizinlə razıyam. 1876-cı ildən bu yana otuzdan çox nəşrdən sonra "Ana dili" dərsliyi dəfələrlə dəyişdirilib. Yakob Qoqebaşvilinin vəsiyyətinə görə, "Ana dili" həmişə yenilənməli və təkmilləşdirilməlidir. Belə ki, cəmiyyətin, pedaqogikanın və dilçilərin qoşulması ilə məzmun üzərində müasirlər üçün də qəbul ediləcək və Qoqebaşvili tədrisinin əsas fundamental prinsiplərini də qoruyub saxlayacaq təkmilləşdirmə həyata keçiriləcək.

***Söhbətləşdi: Mariam QELAŞVİLİ***
***Gürcü dilindən tərcümə: Aynurə ƏLİYEVA***

## YÜKSƏK DAĞLIQ REGIONLARDA ÇALIŞAN UŞAQ BAĞÇASI MÜƏLLİMLƏRİ, TƏDRİS MÜƏSSİSƏSİ RƏHBƏRLİYİ VƏ TEXNİKİ HEYƏT 35%-LİK ƏMƏK HAQQI ƏLAVƏSİ ALACAQ

Yüksək dağlıq regionlarda çalışan müəllimlərdən başqa əmək haqqına 35% ediləcək əlavəni ictimai məktəb rəhbərliyi və teniki heyət, həmçinin erkən və məktəbəqədər təhsil müəssisələrində çalışan bütün işçilər alacaq.

"Gürcüstanın "Yüksək dağlıq regionların inkişafı haqqında" qanununa dəyişikliklərin daxil edilməsi" qanun layihəsini qanunverici orqana parlamentin Sağlamlığın Mühafizəsi və Sosial Məsələlər üzrə Komitəsinin üzvü və "Yüksək dağlıq regionların inkişafı haqqında" qanunun müəlliflərindən biri, parlamentin Kazbekidən olan majoritar deputatı Mirian Tsiklauri təqdim edib.

"Əmək haqlarına ediləcək əlavə ilə bağlı əvvəlki qanunda dağlıq regionların məktəblərinin rəhbərliyi və texniki heyəti, eləcə də məktəbəqədər müəssisələrin pedaqoqları və əməkdaşları nəzərdə tutulmamışdı və dəyişiklikdə onlar da nəzərə alınıb. Tələb, əlbəttə ki, onlar tərəfindən də gəlirdi, amma biz də qanunun necə işlədiyini görürük. Bu ölkədə ideal heç nə yoxdur. Ona görə çalışırıq ki, daha da təkmilləşdirək. Bu baxımdan hesab etdik ki, dəyişikliklər daxil etsək yaxşı olar", - deyə M.Tsiklauri bildirib.

Mirian Tsiklauri qeyd edib ki, dağlıq regionlarda çalışan pedaqoqların əmək haqqına ediləcək 35%-lik əlavə artırılmayacaq, 2019-cu ildə həyata keçiriləcək dəyişikliklər isə məktəblərdə, məktəbəqədər təhsil müəssisələrində çalışan 4800 nəfərə aid olacaq.

"Pedaqoqların əlavəsi indiyə qədər olduğu kimi qalacaq və bundan əlavə məktəbdə və məktəbəqədər təhsil müəssisələrində çalışan 4800 nəfərin əmək haqqı artacaq. Ancaq bu qanun hələ ki, yalnız iki komitə dinləməsindən keçib, parlamentə layihə təqdim olunur və hökumətlə razılıqlar da lazımdır, çünki büdcədə dəyişikliklər tələb olunur. Çoxluğun dəstəklədiyi layihə gələn il ərzində həyata keçiriləcək", - M.Tsiklauri bildirib.

***Hazırladı: Nona KARKAŞADZE***

## MALİYYƏ NAZİRİNİN MÜAVİNİ: "TƏHSİL REFORMASI TƏKCƏ MƏBLƏĞLƏRDƏ GÖRSƏNMƏYƏCƏK, HƏLL OLUNASI BAŞQA PRİORİTETLİ MƏSƏLƏLƏR DƏ ÇOXDUR"

"Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin büdcəsi 2019-cu ildə təqribən 150 milyon lariyə qədər artır, ancaq bu, yenə də tam deyil", - Gürcüstanın maliyyə nazirinin müavini Giorgi Kakauridze "edu.aris.ge" saytına bildirib. O, qeyd olunan bəyanatı "Gürcüstanın 2019-cu il dövlət büdcəsi haqqında" qanun layihəsinin və "Ölkənin 2019-2022-ci illər üçün əsas göstəriciləri və istiqamətləri" sənədinin yekun variantının müzakirə olunduğu Gürcüstan parlamentinin maliyyə-büdcə iclası başlayana qədər verib.



Giorgi Kakauridzenin izahatına görə, Maliyyə və Təhsil, Elm, Mədəniyyət və İdman Nazirlikləri donor təşkilatlarla birgə vahid sənəd üzərində çalışır. Sənədə əsasən məbləğlər 5 il müddətinə nəzərdə tutulacaq.

"Büdcə təqribən 150 milyon lari dəyərində artıb. Ancaq bu, tam məbləğ deyil. Biz məsələ üzərində çalışırıq və Təhsil Nazirliyi Asiya Bankı və başqa donor təşkilatlarla birgə sənəd hazırlayacaq. Sənəddə məbləğ 5 il müddətinə nəzərdə tutulmalıdır", - deyə G.Kakauridze bildirib.

Qeyd olunan sənədin nə zaman hazır olacağı sualına Kakauridze cavab verib ki, təhsil sahəsi ölkənin əsas üstünlüklərindən biri olaraq qalır və onun tam reforması yalnız məbləğlərdə təsvir olunmayacaq:

"Təhsilin reforması ölkənin üstünlüklərindən biridir və bu sahə üçün nəzərdə tutulmuş məbləğin bir hissəsi artıq sənəddə var, amma reforma yalnız məbləğlərdə görsənməyəcək, həll olunası başqa prioritetli məsələlər də çoxdur", - qeyd edib Giorgi Kakauridze.

## MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏRİN AVTORİZASİYASI 2019-CU İLİN 1 APRELİNDƏN 2020-Cİ İLİN SONUNA QƏDƏR HƏYATA KEÇİRİLMƏLİDİR

2019-cu ilin 1 aprelindən 2020-ci ilin 31 dekabrına qədər bütün bələdiyyələr məktəbəqədər təhsil müəssisələrini mərhələli şəkildə avtorizasiyadan keçirməlidir.

Müvafiq dəyişikliklər "Erkən və məktəbəqədər təhsil haqqında" qanuna daxil olur. Layihənin müəllifləri parlament çoxluğunun üzvləri Eka Beselia və Qedevan Popxadzedir.

Təşəbbüskarların izahatına görə, qeyd olunan qanun 2016-cı ildə qəbul olunub. Qanuna əsasən, məktəbəqədər təhsil reforması beş istiqaməti birləşdirir. Konkret olaraq, müəssisədə məktəbəqədər təhsil standartlarının işlənilməsini, binaların infrastrukturu və maddi-texniki bazanın qurulmasını, sanitar-gigiyenik şərtlərin qorunmasını, qida və rasionun qida dəyərləri standartının hazırlanmasını, eləcə də müəssisədə müvafiq kvalifikasiyalı və təcrübəli insan resursunun təmin edilməsini nəzərdə tutur.

"Bu istiqamətlərin əhəmiyyətindən dolayı onların tam və bütün standartları nəzərə almaqla işlənib hazırlanması məqsədyönlüdür. Bunun üçün əlavə vaxt lazımdır. Həmçinin onların təcrübədə əsasının qoyulması və erkən və məktəbəqədər təşhil müəssisələrinin avtorizasiyası prosesinin səmərəli həyata keçirilməsi müəyyən vaxt tələb edəcək", - qanun layihəsinin izahat kartında qeyd edilir.

## LADO APXAZAVA "QLOBAL MÜƏLLİM MÜKAFATI"NIN 50 ƏN YAXŞI MÜƏLLİMİ ARASINDADIR



"Milli Müəllim Mükafatı" üzrə 2017-ci ilin qalibi Lado Apxazava "Qlobal Müəllim Mükafatı"nın 50 ən yaxşı müəllimi sırasına düşüb.

Lado Apxazava Lançxuti bələdiyyəsinin Çibati ictimai məktəbində Vətəndaş təhsili fənnini tədris edir. 2012-ci ildən səkkiz uşağın yaşadığı kiçik ailə tipli evin meneceridir. Ladonun məqsədi şagirdlərin aktiv vətəndaş olması və müasir cəmiyyətin liderləri kimi böyümələridir. O istəyir ki, şagirdlər müstəqil, tənqidi düşüncəli şəxslər kimi formalaşsınlar, öz fikirlərini ifadə edə bilsinlər, ideyalarını təqdim etsinlər və təşəbbüslərini həyata keçirsinlər. Tədris prosesində xüsusi olaraq layihə tədris metodologiyasından istifadə edir. Lado Apxazava nəinki öz məktəbində, hətta region və ölkə miqyasında başqa məktəblərin həmkarları ilə də aktiv əməkdaşlıq edir.

Qeyd edək ki, hər il Varkey fondunun təşkilatçılığı ilə "Qlobal Müəllim Mükafatı" adlı beynəlxalq müsabiqə keçirilir. Peşələrinə böyük töhfə verən müstəsna müəllimlər sırasından 1 nəfər 1 milyon ABŞ dolları həcmində mükafata layiq görülür.

## MANDATURLARIN ƏMƏK HAQQI 200 LARİ ARTIR

Gələn ilin 1 yanvarından məktəblərin təhlükəsizliyi istiqamətində yeniliklər planlaşdırılır. Belə ki, mandaturların əmək haqqı 200 lari artacaq. Bu haqda Təhsil, Elm və Mədəniyyət Komitəsinin sədri Mariam Caşi parlamentin plenar iclasında bildirib. O, 2019-cu ilin büdcə layihəsinin nəzərə alacağı vacib dəyişikliklər haqqında danışıb.

M.Caşinin sözlərinə görə, 130 ictimai məktəbdə əlavə mandaturlar təyin ediləcək. 2019-cu ilin sonuna qədər 588 məktəbdə mandaturlar təhlükəsizliyi qoruyacaqlar.

# XARİCİ VƏTƏNDAŞLAR GÜRCÜSTANDA TORPAQ ALA BİLƏCƏKLƏRMİ? YENİ QANUNDA NƏ YAZILIB?

***Ultramillətçilər etiraz edirlər***

"Gürcüstan torpağını almağa imkan verməyəcəyik!" – ultramillətçi "Gürcü marşı" hərəkatının üzvləri və onların tərəfdarları həftə boyunca bu şüar altında Tbilisidə – Ədliyyə Evinin qarşısında aksiya keçirəcəklər.

Onların etirazlarının ünvanı "Gürcüstan torpağını almağa" hazırlaşan xarici ölkə vətəndaşlarıdır.

Ultramillətçiləri narahat edən nədir və Gürcüstanda başqa ölkələrin vətəndaşlarının torpaq alma qaydasını müəyyən edən yeni konstitusiyada nə yazılıb?

Aksiya iştirakçıları Gürcüstan Konstitusiya Məhkəməsinin kənd təsərrüfatına yararlı torpaqların əcnəbilərə satışına qoyulmuş qadağanı ləğv edən qərarına qarşı çıxırlar.

Dekabrın 10-da Ədliyyə Evinin qarşısında əməlli-başlı "face control" qurulmuşdu.

Aksiya iştirakçıları başqa ölkələrin vətəndaşlarını Gürcüstan vətəndaşlarından dərilərinin rənginə görə ayırd edir və onları Ədliyyə Evinin binasına buraxmırdılar.

Aksiya dekabrın 11-də davam etdirildi. Piket bir həftə davam edəcək və dekabrın 16-da başa çatacaq.

Aksiya iştirakçıları arasında olanlar yalnız "marş"ın ultramillətçi üzvləri deyil. Ədliyyə Evinin qarşısına Gürcüstan parlamentinin üzvləri, "Vətənpərvərlər alyansı" siyasi partiyasının liderləri Ada Marşaniya və Emzar Kvitsiani də gəliblər.

**Ədliyyə Evinin qarşısında nəyə etiraz edirdilər?**

Gürcüstan Konstitusiya Məhkəməsinə iddia ərizəsi ilə Yunanıstan vətəndaşları Prokopiy Savvidi və Diana Şamanidi müraciət ediblər. Onlar Gürcüstan ərazisində miras olaraq aldıqları torpaq sahəsinə mülkiyyət hüquqlarını qeydiyyatdan keçirə bilmirdilər, belə ki, kənd təsərrüfatına yararlı torpaqların əcnəbilərin adına qeydiyyatına qadağa qüvvədə idi.

Onlar tələb edirdilər ki, hələ də qüvvədə olan konstitusiyanın 21-ci maddəsinə zidd olan məhdudiyyət aradan qaldırılsın.

Bu gün qüvvədə olan konstitusiyanın 21-ci maddəsində deyilir: "Varislik və mülkiyyət hüququ tanınır və toxunulmazdır. Ümumi mülkiyyət, onun alışı, satışı və ya miras kimi qəbulu hüququnun ləğvi yolverilməzdir".

Dekabrın 7-də Konstitusiya Məhkəməsi iddianı təmin etdi və qadağanın qüvvədən düşdüyünü bildirdi.

Lakin bu qadağa yalnız dekabrın 16-dək aradan qaldırılıb.

Dekabrın 16-da Gürcüstanın yeni seçilmiş prezidentinin andiçmə mərasimi keçiriləcək. Andiçmədən sonra yeni konstitusiya qüvvəyə minəcək ki, həmin konstitusiyada, ondan öncəkindən fərqli olaraq, kənd təsərrüfatına yararlı torpaqların əcnəbilərin mülkiyyətinə verilməsi qadağan edilir.

Gürcüstanda prezident seçkilərinin ikinci turu noyabrın 28-də keçirilib. Gürcüstanın 5-ci prezidenti hakimiyyət tərəfindən dəstəklənmiş namizəd Salome Zurabişvili olub.

Məhz buna görə ultramillətçilər dekabrın 16-dək Ədliyyə Evinin qarşısında növbə çəkirlər. Bundan sonra onların işini artıq yeni konstitusiya görəcək.

Beləliklə, Gürcüstanda torpaq qeydiyyatdan keçirmək arzusunda olan əcnəbilər qanuna müvafiq olaraq dekabrın 7-dən 16-na qədər ixtiyarlarında olan 5 iş günündən istifadə edə bilmədilər.

Aksiya iştirakçılarından biri – millətçi "Kartuli dasi" siyasi hərəkatının lideri Condi Baqaturiya deyir ki, hakimiyyətin korrupsiyalaşmış hissəsi Konstitusiya Məhkəməsi ilə əlbir olub.

"Əcnəbilərin bu 5 gün ərzində gürcü torpaqlarını alması üçün artıq 2500 sifariş hazırlanıb", - ictimai kanala müsahibəsində Baqaturiya bildirib.

Seçilmiş prezident Salome Zurabişvili and içdikdən sonra yeni konstitusiya qüvvəyə minəcək.

Yeni konstitusiyada yeni qeyd var: "Xüsusi təyinatlı ehtiyat kimi, kənd təsərrüfatına yararlı torpaqlar yalnız dövlətin, özünüidarə vahidinin, Gürcüstan vətəndaşının, yaxud Gürcüstan vətəndaşları birliyinin mülkiyyətində ola bilər", istisnalar isə əlavə qanunvericilik aktı ilə müəyyənləşdirilməlidir.

Əlavə qanunun layihəsi artıq parlamentin aqrar məsələlər üzrə komitəsinin sədri Otar Daneliya tərəfindən hazırlanıb.

Qanun layihəsi andiçmə mərasimindən sonra təqdim olunacaq.

Qanun layihəsinə görə, digər ölkənin vətəndaşı olan fiziki şəxs Gürcüstanda kənd təsərrüfatına yararlı torpaq ala bilməyəcək.

Bundan savayı, xarici ölkə vətəndaşları, Gürcüstan vətəndaşı ilə nikaha girdikdən sonra belə torpağın qeydiyyatdan keçirilməsi hüququ əldə etməyəcəklər.

Torpağın qeydiyyatdan keçirilməsi hüququnu yalnız o xarici ölkə vətəndaşları əldə edəcəklər ki, Gürcüstandakı torpaq onlara miras olaraq qalsın.

O ki qaldı hüquqi şəxslərə, onlar torpaq almaq hüququnu yalnız o halda əldə edəcəklər ki, şirkətin sahiblərinin arasında Gürcüstan vətəndaşı, yaxud vətəndaşlar qrupu olsun.

Konstitusiyada bu qeydin müəllifi hakim partiyadır.

**Tərəfdarların və əleyhdarların arqumentləri**

Əcnəbilərə kənd təsərrüfatına yararlı torpaqların satışına konstitusion qadağanın həm tərəfdarları, həm də əleyhdarları var.



**Qadağanın tərəfdarlarının** əsas arqumenti odur ki, sərt tənzimlənmə olmadan ucuz Gürcüstan torpağı asanlıqla varlı əcnəbilərin əlinə keçəcək.

Yayılmış arqumentlərdən biri də budur ki, əgər əcnəbilər kütləvi şəkildə Gürcüstan torpaqlarını almağa başlasalar, gürcülər Gürcüstanda azlıqda qalacaqlar.

**Qadağanın əleyhdarlarının** fikrincə, əcnəbilərə torpaq satışına qoyulmuş qadağa ölkəyə gələn investisiyaların həcmini azaldacaq. Bu qadağa ilə ölkə özünü yüksək ixtisaslı investorlardan və ölkədə kənd təsərrüfatının inkişafı üzrə biliklərin, təcrübənin və müasir texnologiyaların tətbiqindən, həmçinin torpağın daha yaxşı əllərə düşməsi imkanından məhrum edir.

Bundan əlavə, qadağanın əleyhdarları hesab edirlər ki, varlı alıcılar ölkəyə buraxılmazsa, bazarda torpağın qiyməti ucuzlaşacaq və bu da ilk növbədə, kəndlilərə ziyandır.

Mənbə: JAMnews

## 2019-CU İLİN 1 YANVARINDAN PEYVƏNDLƏR MƏCBURİ OLACAQ

2019-cu ilin 1 yanvarından peyvəndlər məcburi olacaq. Uyğun dəyişikliklər Gürcüstanın "Sağlamlığın qorunması haqqında" qanununa daxil edilib və noyabrın 14-ü parlamentdə 81 səs lehinə, 0 səs əleyhinə olmaqla təsdiq olunub.

Həmçinin məktəblərdə və uşaq bağçalarında tədrisə yeni başlayan zaman peyvəndin vurulmasını təsdiqləyən sənədin təqdim edilməsinin də məcburi olacağı bildirilir. Dəyişikliklərin müəllifləri qeyd ediblər ki, bu kimi yanaşma beynəlxalq təcrübədə geniş yayılıb. Uyğun dəyişiklikləri Gürcüstanın Səhiyyə və Təhsil Nazirlikləri 6 ay müddətində normtiv aktlara daxil etməlidirlər.

Qanun layihəsinin izahına əsasən, ölkə miqyasında əhalinin peyvəndlənməsi səviyyəsinin yetərli olmadığı bildirilir. Dəyişikliklərin müəllifləri qeyd edirlər ki, Dünya Səhiyyə Təşkilatının (WHO) göstəricilərinə görə, peyvənləmə hər il 2 milyondan 3 milyona qədər difteriya, tetanus, qızılca və başqa xəstəliklərdən yaranan ölüm hallarının qarşısını alır. Peyvəndləmənin qlobal əhatə olunması halında isə əlavə 1,5 milyon adamı xilas etmək mümkün olacaq. Layihənin izahahat kartında qızılca hallarının artmasından da söhbət gedir.

"Peyvəndləmə ilə idarə olunan xəstəlik hallarının sayı əhəmiyyətli dərəcədə azaldıqda əhalidə elə təsəvvür yarandı ki, çoxsaylı xəstəliklər keçmişdə qaldı. Ancaq həmin infeksiyalar peyvəndlə əhatə olunma səviyyəsinin azalması halında yenidən xəstəlik, əlillik və ölümə səbəb ola bilər. Qeyd olunana dair kəskin misallardan biri 2013-2014-cü illərdə Gürcüstanda qızılcanın (11 000 hal, 3 ölüm) yayılmasıdır. Xəstəliyin yükü əsasən 1 yaşa qədər və 15-30 yaşda olan əhaliyə düşdü. Bu həmin yaş qrupunun peyvəndlənməməsini təsdiq edir. Qızılca xəstəliyinin proqnoz edilən artma hallarını aradan qaldırmaq üçün 2008-ci ildə 6-27 yaşda əhali arasında peyvəndləmə kampaniyası keçirildi. Kampaniya çərçivəsində əvvəlcədən planlaşdırılmış 980 136 nəfərin əvəzinə yalnız 492 624 (50,3%) nəfər peyvənd edildi. Bu, 2013-2014-cü illərin epidemiyasının vacib ön şərtlərindən biri idi.

2017-ci ildə 94 qızılca halı qeydə alındı. Onların 13%-i 1 yaşa qədər uşaqlarda, 33%-i isə 14 yaşdan yuxarı olanlarda qeydə alındı. 2018-ci ilin may ayının sonunda qızılca hallarının sayı 864-ə çatdı. Xəstəliyə yoluxanların 11%-i 1 yaşına qədər olan uşaqlar, 50%-i isə 14 yaşından yuxarı olanlar idi. Həmin il qızılcadan 2 ölüm halı qeydə alınıb", - sənəddə qeyd olunur.

İzahat kartında qeyd olunur ki, əhalinin peyvəndlər və peyvəndin təhlükəsizliyi haqqında məlumatsızlığı, həmçinin valideynlərin diqqətsizliyi və məsuliyyətsizliyi peyvəndləmə işinə mane olur.

Maliyyə məsələsinə gəldikdə isə, qanun layihəsinin müəllifləri izahat kartında qeyd edirlər ki, dəyişiklikləri qəbul etmək dövlət büdcəsindən əlavə vəsaitin ayrılmasına səbəb olmayacaq, çünki peyvəndləmə sağlamlığın müdafiəsi üzrə dövlət proqramının bir hissəsidir və əhali onu pulsuz əldə edir. Sənəddə eləcə də qeyd olunur ki, proqramın büdcəsi 22 400 laridir və bu məbləğ bütün mümkün benefisiarlar üçün nəzərdə tutulub.

"Peyvənd valideynin şəxsi qərarı deyil, bu, konkret öhdəlikdir. Dövlət də üzərinə öhdəlik götürür, peyvəndlər maksimum dərəcədə təhlükəsiz və keyfiyyətlidir. Həkimlər də öhdəlik götürürlər ki, valideynlərə bu haqda xəbərdarlıq etsinlər. Qızılca kimi təhlükəli xəstəlikləri aradan qaldırmaq üçün peyvənddən təhlükəsiz və keyfiyyətli metod yoxdur", - deyə qanun layihəsinin müəlliflərindən biri Akaki Zoidze bildirib.

Gürcüstanın milli peyvənd təqviminə 10 peyvənd daxildir. Təqvimdə Hepatit B, BCG (Vərəm əleyhinə peyvənd, Poliomielitə qarşı peyvənd), difteriya, tetanus, qızılca və s. qarşı peyvəndlər yer alır.

Dünya Səhiyyə Təşkilatının hesabatına əsasən, 2017-ci ildə qızılcaya yoluxma halları 2016-cı illə müqayisədə 30% artıb. Qızılca epidemiyası dünyanın hər yerində baş verib və 110 000-ə qədər ölüm halına səbəb olub.

WHO-nun göstəricilərinə əsasən, Gürcüstan Avropada qızılcanın yayılmasına görə öndə gedən ölkələrdəndir. Belə ki, Gürcüstan 2018-ci ilin ilk altı ayında 1000-dən çox bu xəstəliyə yoluxma halı qeydə alınan 7 ölkədən biribir.

## MARNEULİ GENDER ZORAKILIĞINA QARŞI KAMPANİYAYA QOŞULUB



Mareuli bələdiyyəsinin Mədəniyyət Evinin təşkilatçılığı ilə gender zorakılığına qarşı 16 günlük kampaniya çərçivəsində tədbir keçirilib.

Marneuli meriyasının məlumatına görə, Mədəniyyət Evinin ətrafında yerləşən parkda "Zorakılığa yox" adlı aksiya keçirilib.

"Aksiya iştirakçıları simvolik olaraq havaya narıncı rəngli şarlar buraxıblar. Bununla zorakılıq qurbanı olan qadınlara qarşı həmrəylik elan ediblər və onlara qarşı törədilən hər növ zorakılığı qınayıblar. Tədbir çərçivəsində həmçinin Mədəniyyət Evinin foyesində mövzuya aid videonun təqdimatı da keçirilib. Videonu Mədəniyyət Evinin əməkdaşları xüsusi olaraq həmin gün üçün hazırlayıblar", - məlumatda qeyd olunur.

Tədbirdə meriya əməkdaşları, sakrebulonun gender şurasının üzvləri, Hüquqi Yardım Xidmətinin Marneuli konsultasiya mərkəzinin məsləhətçisi, Marneulinin "Qadınlar otağı"nın meneceri və başqa dəvətli qonaqlar iştirak ediblər.

## MARNEULİNİN 5 SAYLI İCTİMAİ MƏKTƏBİ MÜASİR STANDARTLARA UYĞUN TƏMİR EDİLİB



Marneulinin yeni təmir edilmiş 5 nömrəli ictimai məktəbində keçirilən tədbirdə Kvemo Kartli qubernatorunun müavini Zaur Darğallı, Marneuli bələdiyyəsinin rəhbər şəxsləri, yerli resurs-mərkəzin nümayəndələri, məktəb direktorları, müəllimlər və şagirdlər iştirak ediblər.

Məktəb müasir standartlara uyğun təmir edilib. Məktəbdə bərpa işləri "Minilliyin Çağırışı Fondu"nun layihəsi çərçivəsində həyata keçirilib və maddi-texniki baza tamamilə yenilənib.

Qeyd edək ki, Kvemo Kartli regionu miqyasında "Minilliyin Çağırışı Fondu" 13 məktəbin tam bərpasını həyata keçirəcək.

## MARNEULİ MERİ TEMUR ABAZOV AZAD EDİLİB



Marneuli meri Temur Abazov dekabrın 13-ü 10 min lari girov müqabilində məhkəmənin qərarı ilə azadlığa buraxılıb.

Xatırladaq ki, Temur Abazov iyunun 13-ü prokurorluq tərəfindən saxlanılıb və iyunun 14-ü həbs cəzası verilib. T.Abazov Gürcüstan Cinayət Məcəlləsinin 1443-cü maddəsinin 2-ci hissəsinin "a" altbəndi, 157-ci maddəsinin 1-ci prima, 1-ci və 2-ci hissəsi ilə ittiham olunub. Qeyd edək ki, bu maddələr məmur və ya onun səviyyəsinə bərabər olan şəxs tərəfindən təhqiredici və ya insanlıqdan kənar hərəkəti, şəxsi həyatı əsk etdirən materialın çəkilməsi və yayımlanmasının təşkil olunmasını nəzərdə tutur.

## REGİON MİQYASINDA SAHİBSİZ HEYVANLARIN MONİTORİNQİ APARILIR

2019-cu ildə Kvemo Kartli regionunda Bələdiyyə İnkişaf Fondu sahibsiz heyvanlar üçün regional sığınacağın layihələşdirilməsi işlərinə başlayır. Buna görə Kvemo Kartli qubernatorunun təşəbbüsü ilə "Sosial proqramlar və inkişaf mərkəzi" xüsusi kampaniyaya başlayıb. Kampaniya region miqyasında sahibsiz itlərin monitorinqini nəzərdə tutur.

Dekabrın 10-nu Beynəlxalq heyvanların mühafizəsi günü ilə bağlı Rustavinin özəl məktəbi "Lampari" prosesə aktiv qoşulub. Məktəbin şagirdlərinə "Sosial proqramlar və inkişaf mərkəzi"nin rəhbər şəxsləri Sopio Beroşvili və Laşa Qeqeçkori araşdırmanın spesifikası və fəaliyyət planı haqqında ətraflı məlumat veriblər.

Məlumat xarakterli görüşdən sonra təşkilat üzvləri və könüllülər araşdırma üçün şəhər ərazisində, konkret lokasiyalara bölünüblər.

Qeyd edək ki, sahibsiz heyvanların monitorinqinə Rustavidən başlanılıb və ayın sonuna qədər Kvemo Kartlinin bütün bələdiyyələrində monitorinq həyata keçiriləcək.

## BARIŞ VƏ VƏTƏNDAŞ BƏRABƏRLİYİ MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ MİLLİ AZLIQLARIN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞÜB



Gürcüstanın barış və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Ketevan Tsixelaşvili ölkənin müxtəlif bölgələrindən olan azərbaycanlı, erməni və digər milli azlıqların nümayəndələri ilə görüşüb. Görüş iştirakçılarına Gürcüstanın Avropa və Avroatlantik strukturlara inteqrasiyası ilə bağlı məlumat verilib.

K.Tsixelaşvili bildirib ki, bu gün bəzi milli azlıqların icmaları Gürcüstanın Qərbə inteqrasiyasına qarşı çıxırlar. Bu da ciddi problemlərə yol açır.

"Biz nazirlik olaraq NATO-nun Gürcüstandakı ofisi, Avropa İttifaqı və NATO İnformasiya Mərkəzi ilə birgə etnik azlıqların nümayəndələri ilə mütəmadi olaraq görüşlər keçirərək onlara Gürcüstanın Avropa və Avroatlantik strukturlara inteqrasiyası barədə ətraflı məlumatlar təqdim edirik. Gürcüstanın hər bir vətəndaşının ölkənin bu sahədə əldə etdiyi nailiyyətlər barədə məlumatlı olması çox vacibdir", - deyə nazir bildirib.

Görüşdə bildirilib ki, milli azlıqları təmsil edən müəllimlər üçün "NATO - sülhlü və sabit inkişaf üçün seçim" mövzusunda tədris seminarı təşkil olunacaq. Həmçinin müəllimlərin müxtəlif hökumət qurumlarında və diplomatlarla görüşləri təşkil ediləcək.

## FATMA ASLAN-ƏLİYEVANIN "TƏKİ ÜMİDLƏR ÖLMƏSİN..." ADLI ŞEİRLƏR KİTABININ TƏQDİMATI KEÇİRİLİB



Tbilisidə, Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyində Azərbaycan Yazıçılar Birliyinin Gürcüstan bölməsinin təşkilatçılığı ilə Fatma Aslan-Əliyevanın "Təki ümidlər ölməsin..." adlı şeirlər kitabının təqdimat mərasimi keçirilib. Tədbiri muzeyin direktoru Leyla Əliyeva açaraq, çıxış etmək və tədbiri aparmaq üçün sözü Azərbaycan Yazıçılar Birliyinin Gürcüstan bölməsinin sədri, "Varlıq" Mədəniyyət Mərkəzinin rəhbəri, şair Rafiq Hümmətə verib. R. Hümmət mərasim və kitab haqqında fikirlərini bildirib. Sonra Azərbaycanın Gürcüstandakı səfirliyinin nümayəndəsi Fəxri Hacılar, Gürcüstan Aşıqlar Birliyinin sədri Osman Əhmədoğlu, Gürcüstan Azərbaycanlıları Konqresinin sədri Hüseyn Yusubov, Gürcüstan Azərbaycanlı Jurnalistlər Birliyinin sədri Nizami Məmmədzadə, Bakıdan gələn ziyalı Afaq Əsgərova, şair Şövkət Dağlarqızı, kitabın ön sözünün müəllifi, şair Afiq Muxtaroğlu, gənc alim Aygül İsayeva, "Region Press" qəzetinin redaktoru Binnət Əlioğlu, müəllifin qardaşı Valeh Əliyev, şairlər və digər iştirakçılar çıxış edərək Fatma xanımın yaradıcılığını yüksək qiymətləndirmişlər. Tədbirdə həmçinin aşıq Nargilə Mehdiyeva saz havaları ilə və 1 saylı Faxralı ictimai məktəbinin bir çox müəllim və şagirdləri şair haqqında öz fikirlərini bildirmiş, kitabından şeir nümunələri ilə çıxış etmişlər. Fatma Aslan-Əliyevanın mərhum qardaşı Arif Əliyevə həsr edilmiş kitabda şairin şeirləri ilə yanaşı qardaşı Arif Əliyev haqqında xatirələri də yer alıb. Qeyd edək ki, "Təki ümidlər ölməsin..." şairin sayca ikinci şeirlər kitabıdır.

## YORMUĞANLI KƏNDİNDƏ AİLƏDƏ ZORAKILIQ VƏ DÖVLƏT XİDMƏTLƏRİ HAQQINDA MAARİFLƏNDİRMƏ MƏQSƏDİ İLƏ MƏLUMAT XARAKTERLİ GÖRÜŞ KEÇİRİLİB



Barış və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət Naziri Aparatının təşəbbüsü, Hüquqi Yardım Xidməti və Daxili İşlər Nazirliyi ilə əməkdaşlığı ilə Saqareco bələdiyyəsinin Yormuğanlı kəndində ailədə zorakılıq məsələləri və dövlət xidmətləri haqqında maarifləndirmə məqsədi ilə məlumat xarakterli görüş keçirilib.

Görüş gender zorakılığına qarşı həyata keçirilən 16 günlük kampaniya çərçivəsində baş tutub. Görüşdə müəllimlər, "Qadınlar otağı"nın və yerli icmanın nümayəndələri iştirak ediblər. İştirakçılara ailədə zorakılıq, qadına qarşı zorakılıq və gender zorakılığı ilə bağlı məlumat verilib, ölkə miqyasında zorakılıq statistikasından söhbət açılıb və bunun yalnız etnik azlıqların sıx məskunlaşdığı regionların və ya ayrıca bələdiyyələrin problemi olmadığı qeyd edilib.

Görüşün sonunda aktiv müzakirə baş tutub. Dövlət müəssisələrinin nümayəndələri bir çox suallara cavab veriblər.

Qeyd edək ki, kampaniya etnik azlıqların məskunlaşdığı regionlarda – Kvemo Kartli, Samtsxe-Cavaxeti və Kaxetidə aparılır.

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | იენი იოლი საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

15 DEKABR 2018-Cİ İL

№020 (79)

## GÜRCÜSTAN XARİCƏ ƏN ÇOX NƏ SATIR – SON 10 İLİN STATİSTİKASI



Son 10 il ərzində ixrac məhsullarının onluğu daim dəyişib. Milli Statistika Xidmətinin məlumatına görə, 2008-ci ildə ixrac onluğunun top üç məhsulu – dəmir ərintiləri, tullantılar və qara metal qırıntıları, yağ və mis konsentrantları idi.

Qeyd edək ki, 2009-cu ilin onluğunda qızıl 6-cı yerdən 2-ci yerə keçir.

2010-cu ilin statistik göstəricilərinə əsasən, mineral sular və təzə sular onluqdan çıxır.

2011-ci ildə də maraqlı tendensiya müəyyən edilir, yüngül avtomobilin ixracı birinci yerə keçir və gəlir 227 milyondan 450 milyon dollara qədər artır.

2012-ci ildə avtomobil ixracı yenə artır, onluğa isə yeni məhsul – müalicə vasitələri əlavə olunur.

2013-cü ildə də fərqli göstəricilər əldə olunur, qoz ixracı 166 milyonla üçlüyə daxil olur.

2014-cü ildə də əhəmiyyətli dəyişiklik qeydə alınır, üzüm şərabının ixracı keçən illə müqayisədə 52 milyon dollar artır.

2015-ci ildə yağ və mis konsentrantları birinci yeri tutur, onluğa isə neft və neft məhsulları əlavə olunur.

Qeyd edək ki, 2016-cı ildə yenidən onluğa mineral və təzə sular qayıdır.

İxrac baxımından cari ildə də maraqlı fakt müəyyən olunub. İxrac onluğuna ilk dəfə tütün düşüb və onun ixracı 100 milyon dollar təşkil edib.

Bu 10 il ərzində ixrac onluğunun tərkibində şərab, avtomobil və dəmir ərintiləri həmişə olub.

Müəllif: Lika AMİRAŞVİLİ

## GÜRCÜSTANDA ƏN ÇOX HANSI ÖLKƏ VƏTƏNDAŞLARI PUL XƏRCLƏYİR



Gürcüstana ən çox səyahət edənlər qonşu ölkələrin vətəndaşları olsa da, ən çox pul Birləşmiş Ərəb Əmirliklərindən, İsraildən və Almaniyadan gələn turistlər xərcləyirlər.

Bu ilin üçüncü rübündə əcnəbi ziyarətçilər tərəfindən həyata keçirilmiş xərclərin ümumi göstəricisi 3,1 milyarda çatıb, bir səyahət zamanı sərf olunan orta xərc isə 1179 larini təşkil edib.

Gürcüstanın Statistika Xidməti tərəfindən verilən məlumata görə, hesabat dövründə ən yüksək orta xərc sonrakı ölkələrin vətəndaşları tərəfindən həyata keçirilib:

• Birləşmiş Ərəb Əmirlikləri - (hər səyahət üçün orta xərc) 2656 lari
• İsrael - 2613 lari
• Almaniya - 2391 lari
• İran - 2116 lari
• Qazaxıstan - 1965 lari
• Rusiya - 1513 lari
• Ukrayna - 1411 lari
• Türkiyə - 654 lari
• Ermənistan - 565 lari
• Azərbaycan - 430 lari

Xərclərin böyük hissəsi qida və içkiyə (ümumi xərcin 30,1%-i) və yerləşdirmə vasitələrinə (25,8%) sərf olunur. İstirahət və mədəni aktivliklərə sərf olunan xərclər 18.8% təşkil edir. Alış-verişə isə səyahətçilər ümumi xərcin 11,2%-ni sərf edirlər.

## GÜRCÜSTANDA İNTİHAR HALLARININ SAYI ARTIB

Daxili İşlər Nazirliyinin statistikasına görə, Gürcüstanda intihar göstəricisi 170,11 faiz artıb. Məlumata əsasən, ötən ilin 10 ayı ərzində intihar həddinə çatdırma, yəni Cinayət Məcəlləsinin 115-ci maddəsi ilə 562 cinayət işi qaldırılıb.

Cari ilin 10 ayı ərzində isə bu göstərici 1518-ə qədər artıb. Bu isə o deməkdir ki, 2017-ci ilin analoji dövrü ilə müqayisədə 2018-ci ilin 10 ayı ərzində intihar sayı 956 dəfə çoxalıb.

## GÜRCÜSTAN PASPORTU İLƏ VİZASIZ 115 ÖLKƏYƏ SƏYAHƏT ETMƏK OLAR




"Passport Index"in reytinqinə görə, Gürcüstan BMT üzvü olan 193 ölkənin pasportları arasında 83-cü yerdədir. Gürcüstan pasportu olanlar isə dünyanın 115 ölkəsinə vizasız səyahət edə bilərlər.

Bu ölkələr arasında 74-ü Gürcüstan vətəndaşlarını vizasız qəbul edir, 41 isə vizanı ölkəyə çatanda verir. Reytinqin lideri bu il Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) pasportu olub. Əmirliyin pasportuna sahib olanlar bu gün dünyanın 167 ölkəsinə vizasız səyahət edə bilər. BƏƏ-nin pasportu reytinqdə ilk dəfə Sinqapur pasportundan önə çıxıb. Sinqapur pasportu bu dəfə ikinci yerdədir və onun sahibləri 166 ölkəyə vizasız səyahət edə bilirlər.

## ƏRZAQ MƏHSULLARI BAHALAŞIB



Gürcüstanın Milli Statistika İdarəsinin yaydığı məlumata əsasən, noyabr ayında ölkədə inflyasiya 0,7% təşkil edib.

Ötən ayda ərzaq məhsulları və alkoqolsuz içkilərin qiyməti 1,4%, alkoqollu içkilər və tütünün qiyməti 0,6%, tərəvəzlərin qiyməti 5,7%, süd, pendir və yumurtanın qiyməti 3,3%, balıq və ətin qiyməti isə müvafiq olaraq 2,1% və 18,8% artıb. Meyvə və üzümün qiymətində isə 8,3% ucuzlaşma qeydə alınıb.

İllik inflyasiyaya gəlincə, nəqliyyat xərcləri 3,8%, səhiyyə xərcləri 5,5%, alkoqollu içkilər və tütün 4,6%, kommunal xərclər isə 3,6% artıb.

## BAKIDA ÇIXAN "MULTİKULTURALİZM" JURNALINA "BORÇALIDAN GƏLƏN SƏSLƏR" ƏLAVƏSİ EDİLİB



Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Yaradıcılıq Fondunun birgə nəşri olan "Multikulturalizm" jurnalının 2018-ci il üçün üçüncü sayı işıq üzü görüb.

Jurnalın budəfəki "Region" əlavəsində "Borçalıdan gələn səslər" başlığı altında Gürcüstan əsilli bir sıra qələm adamının, o cümlədən Rafiq Hümmət, Səməd Qaraçöp, İbrahimxəlil, Nurafiz, Xaqani Qayıblı, Etimad Başkeçid, Eyvaz Əlləzoğlu, Afiq Muxtaroğlu və başqalarının yazıları işıq üzü görüb.

## CİNAYƏTKARLIQ 60 FAİZ ARTIB

Cari ilin yanvar-noyabr aylarında Gürcüstanda 49 min cinayət faktı qeydə alınıb.

Bu göstərici 2017-ci ilin eyni dövrü ilə müqayisədə 60 faiz çoxdur.

Gürcüstanın Daxili İşlər Nazirliyinin məlumatına görə, 2017-ci ilin 11 ayında (yanvar-noyabr) 30 min 600 cinayət faktı qeydə alınıb.

Bununla yanaşı, 2018-ci ildə qeydə alınmış cinayətlərin üstünün açılması faktları da azalıb. Belə ki, 2017-ci ildə qeydə alınmış cinayətlərin 53,56 faizinin üstünün açıldığı halda, cari ildə qeydə alınmış cinayətlərin 35,29 faizinin üstü açılıb. Bu da ötən ildəkindən təqribən 20 faiz azdır.

Cari ildə qeydə alınmış cinayətlər əsasən oğurluq, insanları özünü öldürmə həddinə çatdırma, ailə zorakılığı, narkotik vasitələrin saxlanılması, istifadəsi, satışı və s. sahələrlə əlaqəli olub.

Təsisçi: "Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər Musaoğlu
Yayım Direktoru: Hacı Bəkiroğlu
Qrafik dizayn: Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.